# GORANBOY İNKİŞAF VƏ TƏRƏQQİ YOLUNDA

**Ölkə başçısı tərəfindən qəbul edilmiş Dövlət proqramları Azərbaycanın inkişafında yeni mərhələnin başlanğıcını qoymuş, regionların inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri səviyyəsinə qaldırmışdır. Böyük uzaqgörənliklə müəyyənləşdirilmiş bu strategiyanın düzgünlüyü son illərdə öz bariz təsdiqini tapmış, respublikamızın şəhər və kəndlərinin siması köklü şəkildə dəyişmiş, xalqın həyat şəraitinin yaxşılaşdırılmasına, onların sosial-məişət və maddi rifah halının yüksəldilməsinə stimul vermişdir. Vətəndaş amilinə diqqət və qayğı prioritet məsələlərdən olmuşdur. Həyata keçirilən uğurlu iqtisadi siyasət qlobal böhran şəraitində belə, Azərbaycanın hərtərəfli inkişafını təmin etmiş, onun dünyada nüfuz və mövqelərini gücləndirmişdir. Hazırda hər bir ailə, hər bir vətəndaş sözügedən Dövlət proqramlarının real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.**



Bəli, bu gün Azərbaycan davamlı və sürətli inkişaf yolunda olan, tam müstəqil siyasət yeridən dövlət kimi nurlu sabahlara doğru inamla irəliləyir. Bu gün Azərbaycanın ucqar guşəsində belə inkişaf göz qabağındadır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Qərb bölgəsinin qabaqcıl aqrar rayonu olan Goranboya səfəri çərçivəsində rayonun inkişafından razı qalmış və demişdir: "Mən Goranboyun inkişafı naminə və rayonun problemlərinin həlli üçün əlimdən gələni əsirgəməyəcəm". Bəli, bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna daim diqqət və qayğısı goranboyluların qurub yaratmaq əzmini daha gücləndirmiş, bu isə öz bəhrəsini vermişdir. Dövlət başçısı 4 dəfə rayona səfər etmiş, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı 6 sərəncam imzalamışdır. Təkcə son 5 ildə 4720 yerlik 24 məktəb, 2 əlavə tədris korpusu tikilmiş, 1920 yerlik 8 məktəb əsaslı təmir edilmişdir. Həmçinin Heydər Əliyev Mərkəzi, YAP rayon təşkilatı, Şahmat məktəbi, Su-kanal idarəsi, Qaz istismar idarəsi, Avtovağzal üçün yeni binalar inşa edilmiş, rayon mədəniyyət evi əsaslı şəkildə yenidən qurulmuşdur. "Goranboy rayonu Azərbaycanın iri, çox böyük iqtisadi potensiala malik olan və strateji xarakter daşıyan rayonudur" deyən ümummilli lider Heydər Əliyev də həmişə rayona diqqət və qayğı göstərmişdir. Məhz bunun bariz nümunəsidir ki, Qədim Oğuz yurdu olan Goranboyun sıçrayışlı inkişafı, sözün əsl mənasında rayonun simasını tam dəyişmişdir. Rayonda aparılan tikinti, abadlıq və quruculuq işləri geniş vüsət almış, sahibkarlıq inkişaf etmiş, yeni müəssisələr yaradılmış, məktəblər, müalicə ocaqları tikilmiş, yeni yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, qədim ornament və elementləri ilə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi kompozisiya verir, zövqlə salınmış park və istirahət mərkəzləri, göz oxşayan fəvvarələr, əsrarəngiz təbiətə və füsunkar gözəlliyə malik olan Heydər Əliyev, Gənclik, Nizami parklarının, qədim Oğuz yurduna xas olan mədəniyyət elementlərinin yüksək zövqlə işlənməsi, heykəltəraşlıq nümunələri, hər bir qədirbilən goranboylunun firavan həyatını daha da rövnəqləndirir, onlara ruhi qida verir. Yüksək inkişaf tempi ilə aparılan infrastruktur layihələri şəhərin simasına xüsusi gözəllik verməkdədir.

Rayonun iqtisadi göstəricilərinə nəzər saldıqda sosial-iqtisadi sahədə, mədəni-məişət məsələlərində ürəkaçan yüksəlişin şahidi oluruq. Eyni zamanda şəhərin hər yerində yenilik, səliqə və sahmanla aparılan abadlıq-quruculuq işləri davamlı inkişafdan xəbər verir. Bütün sakinlərin sevimli dincəlmək yeri olan Heydər Əliyev adına parkda 2500 kvadratmetr sahəyə yaşıl ot salınmış, 3500 ədəd gül kolları, 220 ədəd dekorativ ağac əkilmişdir. 21 ədəd müasir işıqlandırma dayağı qoyulmuşdur.

Rayonda Çernobıl faciəsi qurbanlarının xatirəsini əbədiləşdirmək üçün abidə ucaldılmışdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən dünya standartlarına uyğun Olimpiya İdman Kompleksinin tikintisi aparılır.

Goranboy şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik uşaq bağçasının tikintisi başa çatmışdır. Yaxın vaxtlarda isə şəhər 3 saylı uşaq bağçasında bərpa-gücləndirmə və əsaslı təmir işlərinə başlanılacaqdır.

Əlil və şəhid ailələri daim diqqət mərkəzindədir. Məhz bunun təzahürüdür ki, ötən il şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün 54 mənzilli yaşayış binası istifadəyə verilmiş, hazırda bu qəbildən olan 12 ailə üçün fərdi yaşayış evinin tikintisi yekunlaşmaq üzrədir. İlin sonunadək bir neçə ev də inşa ediləcəkdir.

Qazanbulaq qəsəbəsində həyata keçirilən layihə üzrə 4,5 km içməli su xətti çəkilmiş, tutumu 50 ton olan su anbarı tikilmişdir. Nadirkənd kəndində isə içməli su xəttinin çəkilişi 90 faiz başa çatdırılmış, tutumu 100 ton olan su anbarının və 50 ədəd bulağın tikintisinə az bir vaxtda başlanılacaqdır. Kənd İnvestisiya Layihəsi çərçivəsində Yolpaq və Əhmədabad kəndlərində 8,5 km, Boluslu və Məşədiqaralar kəndlərində isə 13,7 km kənddaxili yollar yenidən qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi mədəni irsimizin mühüm tərkib hissəsi olan tarix-memarlıq abidələrinin təmiri və bərpası, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində Goranboy rayonunda mühüm işlər görülür və bu sahədə müəyyənləşdirilmiş kompleks işlərin icrası gündəlik nəzarətdə saxlanılır.

Goranboy Rayon İcra Hakimiyyətinin dəstəyi və təşəbbüsü ilə Mədəniyyət və Turizm İdarəsi tərəfindən tarixi və əlamətdar günlərə həsr olunmuş geniş tədbirlər keçirilir. Bayram günlərində sakinlərin asudə vaxtlarının səmərəli keçməsi üçün konsert proqramları təşkil olunur. Bu konsertlərdə yerli və respublikanın incəsənət ustaları və tanınmış müğənnilər iştirak edir, vətəndaşlara ruhi qida verirlər.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın gərgin əməyi nəticəsində YUNESKO-nun qeyri-maddi irsinin siyahısına daxil edilmiş Novruz bayramı şənlikləri hər il öz xüsusi özəlliyi ilə təşkil olunur. Bu yaxınlarda icra hakimiyyətinin dəstəyi, təşəbbüsü və təşkilatçılığı ilə Qədim Oğuz Yurdu Goranboyun 85 illiyi münasibətilə möhtəşəm ümumşəhər yubiley bayramı qeyd edilmişdir. Yeri gəlmişkən onu qeyd etmək lazımdır ki, bu müddətdə rayon şanlı və şərəfli tarix yolu keçmişdir. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 8 avqust 1930-cu il tarixli qərarı ilə Goranboy kəndi mərkəz olmaqla Goranboy rayonu yaradılmışdır. Həmin vaxt rayonun sahəsi 1231 kvadratkilometr, əhalisi isə 37 min nəfərə yaxın olmuşdur.

Yaradıldığı gündən ötən dövr ərzində rayon böyük inkişaf yolu keçmiş, Azərbaycan elminə, iqtisadiyyatına, mədəniyyətinə böyük töhfələr vermiş, dövlət xadimləri yetişmişdir. Aslanbəy Səfikürdski, Abdulla Bayramov, Cəlil Məmmədov, Firudin Mustafayev, Müseyib Nağıyev, Rza Aslanov, Əli Bünyadzadə kimi xadimlər həmişə minnətdarlıqla xatırlanırlar. Dadaş Rzayev və Oqtay Əliyev general rütbəsinədək yüksəlmişlər. 2 akademik, 30-dan çox elmlər doktoru, professor, 50-dən çox elmlər namizədi respublika elminin inkişafına öz töhfələrini vermiş və bu gün də davam etməkdədir. Onu xüsusilə qeyd etmək lazımdır ki, rayonun inkişafı məhz dahi şəxsiyyət, əbədiyaşar Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsi ilə bağlıdır. Həmin illərdə rayon iri taxılçılıq və pambıqçılıq rayonu kimi ad çıxarmışdı. Bunun sayəsində xeyli əmək qəhrəmanları yetişmişdi. Goranboylular bu gün də iki dəfə Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırova ilə, sosialist əməyi qəhrəmanları Mansır Kərimovla, Manya Kərimova, Bəşir Musazadə, Həvayət Qurbanova ilə və digər neçə-neçə əmək qabaqcılları ilə fəxr edirlər. Böyük Vətən Müharibəsində göstərdikləri qəhrəmanlığa görə İdris Süleymanov və Məmməd Məhərrəmov Sovet İttifaqı Qəhrəmanı, Qarabağ müharibəsində isə 9 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Bu gün də hər bir sahədə bu ənənə davam etməkdədir. Elman Muxtarov, Firudin Quliyev və neçə-neçə rayon idmançıları beynəlxalq tədbirlərdə dəfələrlə Azərbaycan bayrağını yüksəkliyə qaldırmış, vətəni layiqincə təmsil etmişlər.

Eyni zamanda mədəniyyət müəssisələrinin maddi bazasının yaxşılaşdırılması istiqamətində də xeyli işlər görülmüşdür. Hazırda şəhər uşaq kitabxanası və Dövlət Rəsm Qalereyası üçün 2 mərtəbəli yeni bina inşa edilir. Tarix-Diyarşünaslıq Muzeyi üçün əlavə korpusun tikintisi başa çatmışdır. Hazırəhmədli kənd mədəniyyət evinin əsaslı təmiri isə yaxın günlərdə başa çatacaqdır. Əhalinin fasiləsiz təbii qazla təminatı və qaz almayan yaşayış məntəqələrinin qazlaşdırılması işləri davam etdirilir. Hazırda rayonun 11 kəndində, o cümlədən Dəyirmanlar, Azad, Baxçakürd, Yolqullar, Sarov, Yolpaq, Əzizbəyov, Səmədabad, Qarapirimli, Qaraçinar, Veyisli kəndi ərazisində məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı yaşayış massivində qaz çəkilişi gedir. Əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı üçün işlər davam etdirilmişdir. Qeyd etmək yerinə düşər ki, "Azərişıq" ASC yarandıqdan sonra bu sahədə ciddi işlər görülməsinə başlanmışdır. Elektrik təsərrüfatında əsaslı və cari təmir işləri aparılmışdır. Hazırda Goranboy şəhəri ərazisində 4 km məsafədə SİB kabel çəkilmiş, 200 ədəd metal dayaq, rayon üzrə 9 ədəd yeni güc transformatoru quraşdırılmışdır. Tap Qaraqoyunlu kəndində də SİB kabelin çəkilməsi üçün hazırlıq işləri görülür. "Goranboy şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulması" layihəsinin icrası başa çatmış, Murovdağdan Goranboy şəhərinə 45 km uzunluğunda su kəməri çəkilmişdir. Hazırda rayon mərkəzi ilə yanaşı, 17 yaşayış məntəqəsi ekoloji cəhətdən təmiz içməli su ilə təmin edilir.

Göründüyü kimi, Goranboy rayonu sürətlə inkişaf edir, müasirləşir. Əhalinin maddi rifah halı günü-gündən yüksəlir. İnanırıq ki, rayon bu innovativ inkişafla daha böyük nailiyyətlər qazanacaqdır. Zəngin tarixə və ənənələrə malik qədirbilən Oğuz yurdu—Goranbay bundan sonra da dövlətə, dövlətçiliyə sadiqliyini bir daha nümayiş etdirərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, qarşıda duran əzəmətli vəzifələri uğurla yerinə yetirəcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**





